**TƏLƏBƏLƏRİMİZİN UĞURLARI**




ATU-da təhsil alan tələbələrimiz arasında həvəskarlarla yanaşı peşəkar idmançı tələbələrimiz də klubumuzun bölmələrində məşğul olurlar. Belə ki, Azərbaycan Tibb Universitetinin idman tarixində ilk dəfə “Təbib” idman klubunun karate bölməsində məşğul olan Hərbi tibb fakültəsinin tələbəsi **Vüsal Seyidov** ölkəmizin karate üzrə yığma komandasının tərkibində 2022 - 2024-cü illər ərzində ümumilikdə Karate üzrə keçirilən Avropa çempionatından üç, dünya çempionatından isə əldə etdiyi dörd medalla öz adını universitetin idman tarixinə yazdırmışdır.



25 fevral 2023-cü il tarixində Respublika Mərkəzi şahmat klubunda Milli Qəhrəman Albert Aqarunov adına "Chess Master" Şahmat klubunun təşkilatçılığı ilə təşkil olunan "Dostluq Kuboku-2023" beynəlxalq reytinqli şahmat turniri keçirilib. Azərbaycan Tibb Universiteti 2 komanda "Təbib" və "Loğman" komandaları ilə təmsil olunub.

**"TƏBİB" komandasının tərkibi:**

1. Məlikov Fərid
2. Həsənzadə Vüsal
3. Balayev Zaur
4. Zeyniyev Əli
5. Abışov Cəmil

**"LOĞMAN" komandasının tərkibi:**

1. Abdullayev Müseyib
2. Xudiyev İslam
3. Rəhimli Nuranə
4. Mollayev Abusəddin
5. Əzimli Xətai

Turnirin sonunda "Təbib" komandası yarışı ümumi nəticələrə görə 1-ci, "Loğman" komandası isə 5-ci nəticə ilə başa vurub. Qaliblər diplom və medallarla təltif olunub.




Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə 06-11 sentyabr 2023-cü il tarixlərində Quba Olimpiya Kompleksində **“KOMANDO**” hərbi düşərgəsi təşkil olunub. Düşərgədə ölkənin müxtəlif regionlarından olan ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri iştirak edib. “Təbib” idman klubunun təşəbbüsü ilə Azərbaycan Tibb Universitetini Müalicə-profilaktika fakültəsinin 3-cü kurs tələbələri - Toğrul Abdullayev, Sənan Quliyev, Kənan Quliyev və Salman Sadıqov təmsil ediblər. Beş günlük düşərgə hərbi ağırlaşdırılmış formatda keçirilib. Ekstremal şəraitdə əyləncəli hərbi və intellektual oyunlar, hərbi təlimlər, şəbəkələşmə və digər fəaliyyətlər tələbələrin yaddaşında iz buraxa bilib. Tələbəmiz Toğrul Abdullayev mühəndis-istehkam hazırlığında I, qumbaraatma yarışlarında II yer tutub, rəngarəng nömrələr, nümunəvi çıxışları ilə fərqlənib. Salman Sadıqov kəşfiyyat topoqrafiyasında ikinci olub. Kənan Quliyev intellektual bilik yarışmasında I, Sənan Quliyevin komandası ümumi qrupda II yerə layiq görülüb.

Qeyd edək ki, ATU tələbələri bu düşərgədə hərbi nizam-intizam qaydalarına görə ən yüksək bal toplayıb. Düşərgənin son günü tələbələrimizə təlimatçı zabitlər tərəfindən təşəkkür elan edilib və Gənclər və İdman Nazirliyinin sertifikatı təqdim olunub.

# ATU-NUN TƏLƏBƏLƏRİ GENİŞMİQYASLI QAÇIŞ YARIŞINDA FƏRQLƏNİBLƏR



2025-ci ilin İyunun 1-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının üzv təşkilatı Azərbaycan Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin təşəbbüsü və təşkilatçılığı ilə səhiyyə işçiləri arasında növbəti genişmiqyaslı qaçış yarışı keçirilib.

Xatırladaq ki, “Sağlamlığa Doğru Qaç!” layihəsi 17 iyun – Tibb işçilərinin peşə bayramına həsr olunaraq, ölkəmizin tibb işçiləri arasında sağlam həyat tərzinin təbliği, fiziki aktivliyin artırılması, asudə vaxtın səmərəli təşkili, həmkarlar arasında birlik və həmrəyliyin gücləndirilməsi məqsədi daşıyırdı.

Tədbirdə Azərbaycan Səhiyyə İşçiləri Həmkarlar İttifaqının tabeliyində fəaliyyət göstərən Bakı, Sumqayıt, Abşeron, Şuşa və Zəngilan rayonundan olan 70-ə yaxın tibb müəssisəsindən 500 nəfərə yaxın səhiyyə işçisi, o cümlədən, Azərbaycan Tibb Universiteti, 1 nömrəli Bakı Tibb, 2 nömrəli Bakı Tibb və Sumqayıt Tibb kolleclərində təhsil alan tələbələr iştirak ediblər.

Kişilər arasında ATU-nun tələbələri Vüsal Seyidov I yer, Toğrul Abdullayev III yeri tutublar. Qadınlar arasında tələbəmiz Məhsa Palar I yer, Zülfiyyə Məmmədli II yeri qazanıb. Qaliblər diplom, medal və müxtəlif hədiyyələrlə mükafatlandırılmaqla yanaşı, Xankəndi şəhərində keçiriləcək final mərhələsində iştirak etmək hüququ qazanıblar.

## “Sağlamlığa doğru qaç!” qaçış yarışının final mərhələsində atu tələbələri də yüksək nəticə göstəriblər

17 iyun 2025-ci il tarixində Xankəndi şəhərində səhiyyə işçiləri arasında “Sağlamlığa Doğru Qaç!” adlı genişmiqyaslı qaçış yarışının final mərhələsi keçirilib.

Azərbaycan Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin təşəbbüsü və təşkilatçılığı, TƏBİB-in, Azərbaycan Atletika Federasiyası (AAF) və “Zəfər” Qaçış Klubunun dəstəyi ilə keçirilən tədbir 17 iyun – Tibb İşçilərinin Peşə Bayramına həsr olunmuşdu.

Yarışa start verildikdən sonra iştirakçılar üçün 5 km-lik məsafə əvvəlki mərhələlərlə müqayisədə daha çətin oldu. Xankəndinin dağlıq relyefi və enişli-yoxuşlu yollar marafonçulara əlavə fiziki çətinliklər yaratsa da, iştirakçılar böyük əzmkarlıq nümayiş etdirdilər.

ATU tələbələri güclü olduqlarını və yüksək nəticə göstərdiklərini bir daha sübut etdilər. Qadınlar arasında Məsha Palar finişə birinci çatdı, Zülfiyyə Məmmədli isə ikinci oldu. Kişilər arasında Vüsal Seyidov bu dəfə finişə üçüncü, Toğrul Abdullayev isə 5-ci çatdı.

Yarışın yekunlarına əsasən, kişi və qadın kateqoriyalarında I, II və III yerlərin qalibləri diplom, medal, kubok və müxtəlif bahalı hədiyyələrlə təltif olundular. Tədbir çərçivəsində Azərbaycan Tibb Universitetinin “Çinar” rəqs ansamblı da öz rəngarəng çıxışları ilə tədbirə xüsusi rəng qatdı.




I YER 500₼
SAĞLAMLIĞA DOĞRU QAÇ!
1458
III YER
DİPLOM

# TƏLƏBƏLƏRİMİZ BEYNƏLXALQ YAY DÜŞƏRGƏSİNDƏ İŞTİRAK EDİB




3-9 avqust 2025-ci il tarixlərində Gənclər və İdman Nazirliyi və Azərbaycan İdman Akademiyasının (ASA) birgə təşkilatçılığı ilə Qubada "Dayanıqlı inkişafa bir addım" adlı beynəlxalq yay düşərgəsi təşkil olunub. Düşərgəyə ölkəmizdə fəaliyyət göstərən bir sıra universitetlərin, o cümlədən Türkiyə, Qazaxıstan və Qırğızıstanın ali məktəblərində təhsil alan tələbələr qatılıb. Tanınmış təlimçilərin də iştirak etdiyi düşərgədə seminarlar ingilis dilində təşkil olunub, iqtisadi, sosial və maddi problemlərin həllinin araşdırılması üçün komandalar yaradılıb və onlara müvafiq tapşırıqlar verilib.

Azərbaycan Tibb Universitetindən düşərgəyə beş tələbə - Emin Cəfərli, Səfiyyə Qazilova, Zülfiyyə Məmmədli, Fərhad Bayramov və İlhamə Namazova qatılıb. Onlar öz fəallıqları ilə seçilib, fikir və ideyalarını iştirakçılarla bölüşüblər.

Orada həmçinin tələbələrimizin təklifi ilə voleybol yarışı da keçirilib. E.Cəfərli oyun boyunca "Təbib" voleybol komandasında öyrəndiyi bacarıqları sərgiləyərək digərlərindən fərqlənib. "Kahoot" yarışında isə İ.Namazova bütün suallara doğru cavab verərək qalib olub.

Rəqs gecəsində Z.Məmmədli "Uzun dərə" rəqsi ilə əcnəbiləri heyran edib. G.Məmmədova və S.Qazilovanın gender bərabərsizliyi ilə bağlı məruzələri iştirakçıların marağına səbəb olub. Müsabiqənin sonunda ATU-nun komandası birinci yerə layiq görülüb və üzvlərə hədiyyələr təqdim olunub.

Düşərgə iştirakçılarına sertifikatların verilməsi mərasimində ATU-nun "Təbib" Tədris İdman Mərkəzinin müdiri Qələndər Aslanov çıxış edib.

